# Salyanlılar şəhid leytenant Ülvi Bağırovla vidalaşıblar




Şəhidlik zirvəsinə ucalan Azərbaycan Ordusunun zabiti leytenant Bağırov Ülvi Hənifə oğlunun nəşi doğulub boya-başa çatdığı Salyan rayonuna gətirilib.

2023-cü il sentyabrın 19-20-də Qarabağ iqtisadi zonasında həyata keçirilən antiterror tədbirləri zamanı ağır yaralanmış Azərbaycan Ordusunun zabiti leytenant Ülvi Bağırov aprelin 7-də müalicə olunduğu tibb müəssisəsində vəfat edib.

Vida mərasimində şəhidin ailə üzvləri ilə bərabər, Müdafiə Nazirliyinin, rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəsmiləri, veteran və qazilər, şəhidin döyüş yoldaşları, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Azərbaycan. - 2024.- 9 aprel, № 73.- S.8.